## «Asan xidmət» avand iş vəd edir

*İlkin mərhələdə vətəndaşlar mərkəzlərdə 9 dövlət strukturunun 24 xidmətinə çıxış imkanı əldə edəcəklər*

Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Nəzarət və qiymətləndirmə şöbəsinin əməkdaşı Fuad Qarayevin mətbuata verdiyi açıqlamaya əsasən, dekabrın sonunda ölkəmizdə «ASAN xidmət» mərkəzlərinin açılması planlaşdırılır. Birinci mərhələdə Bakıda üç mərkəz yaradılacaq və vətəndaşlar doqquz dövlət strukturunun 24 xidmətinə çıxış imkanı əldə edəcəklər. Gələcəkdə Dövlət Gömrük Komitəsinin, Vergilər Nazirliyinin, Miqrasiya Xidmətinin, Əmlak Məsələləri Dövlət Komitəsinin və başqa qurumların xidmətlərinə də çıxış mümkün olacaq. 2013-cü ilin yanvarından «ASAN xidmət» mərkəzlərində xüsusi terminalların quraşdırılması planlaşdırılır ki, bu da xidmətlərə çıxışı sadələşdirəcək. Həmçinin, internet vasitəsilə xidmətlər «bir pəncərə» prinsipi üzrə həyata keçiriləcək.

Qeyd edək ki, «ASAN xidmət» mərkəzləri dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşmanın formalaşdırılmasına, ölkədə dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə xidmət edir. Mərkəzlər operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında fəaliyyət göstərəcəklər.

***Gözlənilən nəticələr***

Dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş formada həyata keçirilməsini təmin edən bu qurumlar vətəndaşların əlavə xərclərini və vaxt itkisini azaltmaqla onlarla münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə nail olunmasına və peşəkarlıq səviyyəsinin artırılmasına xidmət edəcək. Bu, həmçinin, dövlət strukturlarına etimadın və korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsinə, şəffaflığın artırılmasına, elektron xidmətlərdən daha geniş istifadə olunmasına və bu sahədə aparılan institusional islahatların səmərəliliyinin yüksəlməsinə də şərait yaradacaq.

***«Asan xidmət»dən***
***necə istifadə olunacaq?***

Vətəndaş mərkəzə daxil olaraq məlumat köşkündən əldə etmək istədiyi sənəd üçün hansı şöbəyə və hansı sənədlərlə müraciət etməli olduğunu öyrənir və həmin şöbənin pəncərəsində elektron növbə əsasında gözləyir. Növbəsi çatdıqda o, xidmətin həyata keçirilməsi üçün tələb edilən sənədləri təqdim edə və əldə etmək istədiyi sənədi müəyyən edilmiş müddətlərdə götürə bilər.

Mərkəzlərdə vətəndaşların məlumat əldə etməsini asanlaşdırmaq məqsədi ilə elektron lövhələr və işarələr də yerləşdiriləcək. Bu qurumlar təqvimin bütün günlərində fasiləsiz açıq olacaq.

Mərkəzlər vətəndaşların gözləməsi və vaxtını səmərəli keçirməsi üçün funksional yardımçı xidmətlərə (uşaq əyləncə mərkəzi, internet-kafe, bank, poçt şöbələri və s.) də malik olacaq. Mərkəzlərdə göstərilən bütün xidmətlərin bir-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərməsi üçün müasir informasiya texnologiyalarından geniş istifadə ediləcək. Xidmət üçün qanunla müəyyən edilmiş ödənişlər bank şöbələri, ödəmə nöqtələri və ya internet vasitəsilə ediləcək.

Mərkəzlərdə şəffaflığın təmin edilməsi, qiymətləndirmənin aparılması məqsədi ilə xidmət aparılan otaqların təşkilinə müəyyən tələblər qoyulub. Otaqların divarları şəffaf materiallardan olacaq, hər bir xidməti pəncərədə xidmət proseduru fasiləsiz olaraq videokamera vasitəsilə qeydiyyata alınacaq.

***Vətəndaşlara göstəriləcək xidmətlər...***

«ASAN xidmət» mərkəzlərində birbaşa (yerində), «Çağrı» mərkəzi vasitəsilə və ya səyyar xidmətlər göstəriləcək. Mərkəzlərdə özünəxidmət də mövcud olacaq.

Vətəndaşa birbaşa xidmət müraciət etdiyi dövlət orqanı tərəfindən göstəriləcək. Mərkəzdə daim internetə açıq olan kompüterlər vasitəsilə vətəndaşlar hər növ elektron xidmətlərdən yararlanmaqla özünəxidmət imkanı əldə edəcəklər.

«Çağrı» mərkəzləri vasitəsilə vətəndaş mərkəzə gəlmədən internet və ya telefon vasitəsilə bütün xidmət növləri, tələb edilən sənədlər barədə məlumat ala, növbə tuta, mərkəzin fəaliyyəti ilə

bağlı təkliflərini verə bilərlər. «Çağrı» mərkəzi, eyni zamanda, videoqəbul vasitəsilə vətəndaşlara informasiya xidmətini həyata keçirir.

Səyyar xidmətlər dedikdə isə qanunla nəzərdə tutulmuş qaydada əlavə ödəniş aparılmaqla vətəndaşın öz iş və ya yaşayış yerini tərk etmədən xidmətlərdən yararlanması nəzərdə tutulur. Səyyar xidmətlər kənardan qulluğa və yardıma ehtiyacı olan əlillər və sağlamlıq imkanları məhdud uşaqlar üçün əlavə ödəniş aparılmadan həyata keçiriləcək.

Məlumat üçün deyək ki, agentliyin tabeliyində olan «ASAN xidmət» mərkəzlərində dövlət orqanları tərəfindən aşağıdakı xidmətlər həyata keçiriləcək: vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, doğumun, ölümün, nikahın, nikahın pozulmasının, övladlığa götürmənin, atalığın müəyyən edilməsinin, adın, ata adının və soyadın dəyişdirilməsinin qeydə alınması, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı haqqında şəhadətnamələrin (təkrar şəhadətnamələrin) verilməsi, notariat fəaliyyəti, şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, məhkumluq barədə arayışların verilməsi, daşınmaz əmlakla bağlı əməliyyatların qeydiyyatı, yaşayış evləri (mənzilləri) üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması barədə çıxarışların (ilkin qeydiyyat istisna olmaqla) verilməsi, daşınmaz əmlak üzərində hüquqların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların verilməsi, kommersiya hüquqi şəxslərin və vergi ödəyicilərinin qeydiyyatı, hüquqi və fiziki şəxslərə arxiv arayışlarının verilməsi, gömrük bəyannamələrinin, gömrük rəsmiləşdirilmələri üçün sənədlərin qəbulu, Azərbaycanda müvəqqəti yaşamaq üçün icazə, habelə daimi yaşamaq üçün immiqrant statusunun əldə edilməsi ilə bağlı sənədlərin verilməsi, torpaq kadastrı məlumatları barədə arayışların verilməsi, əmək pensiyalarının təyin edilməsi, dövlət orqanlarının göstərdikləri bütün xidmətlər üzrə informasiya xidmətinin həyata keçirilməsi.

«ASAN xidmət» mərkəzlərində dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərə görə ödənilən dövlət rüsumlarının 30%-i həmin mərkəzlərdə saxlanılacaq və bu vəsait orada fəaliyyət göstərən dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsinə yönəldiləcək.

A.İBRAHİMOVA